MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 78**
**ORCID: 0009-0002-4901-2216**
**https://doi.org/10.52094/WYVF4716**

**Zamiq Əliyev Balarza oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Professor**

# MUĞAM VƏ ONUN TARİXİ QAYNAQLARI

**Xülasə:** Yazdığım məqalədə musiqi dünyasının qədimliyi, həmçinin musiqimizin rəngarəngliyi, onun əlçatmaz mənəvi dəyərləri əks olunmuşdur. Məqalədə muğamın yaranma tarixi, onun əlçatmaz mənaları özünəməxsus mənbələr əsasında işıqlandırılmışdır. Muğamın ana atributları lüğəti terminlərlə açılmış və onun yaranma tarixi, tarixi silinməz mənaları üzə çıxarılmışdır. Məqalə orijinal mənbələrə söykənməklə yeni fikirlərlə zənginləşdirilmişdir. Digər bir tərəfdən, musiqimiz Qabıssan (Qobustan) qayaüstü rəsmlərinə və xalça işarələrinə bağlanmaqla, Azərbaycan musiqisinin bir daha bəşəri qədimliyi irəli sürülmüşdür. Daha maraqlısı, məqalədə Adəm və Nuhun əsamələrinin önə çıxarılması bir daha Azərbaycan musiqisinin, muğamlarının, dastanlarının əcdad musiqisi olması təkzib edilməz şəkildə önə çıxarılmışdır.

**Açar sözlər**: muğam, Zərdüşt, mahnı, Qabusnamə, dastan, Adəm, Nuh, xalça, qayaüstü rəsmlər.

**Giriş.** Muğam musiqi dünyasının əcdadır desək, heç də yanılmarıq. Bu, elə bir əcdaddır ki, bütün dünya musiqisinin kökündə muğamın çalarları vardır. Çox təəssüflər olsun ki, muğamın tarixi kökləri lazımi səviyyədə öyrənilib açılmamışdır. Bu baxımdan muğamın tarixi qaynaqlarına yeni prizmadan yanaşmaqla, klassik mənbələr əsasında muğamın tarixi qaynaqları ilə bağlı fikirlərimizi söyləməli oluruq. Muğamın tarixi, fəlsəfi, etimoloji mahiyyətini açmaq, onu üzə çıxarmaq üçün söz tənliklərinə bağlanmaqla fikrimizin reallığını üzə çıxaracağıq. Bu sözlər və söz tənlikləri nədir? İlkin olaraq, muğam sözünün dilçilik və linqvistik baxımdan açılmasına nəzər yetirək.

**Əsas hissə.**

1) Muğ-Mağ-Müg – Atəşpərəst, məcmusu mağ. Zərdüşt dininə mənsub olan, yol göstərən meyxanaçı, meyxana sahibi mənasını verir (1, səh. 405).

2) Amm – kütlə, xalq, insan toplusu (Qövm) (1, səh. 21). İndi isə ikinci bir lüğətə bağanaq. Belə halda fikir aydınlığı üzə çıxacaq.

Muği – səkkiz, səkkizlik, səkkiz gün (2, səh. 175). Səkkizlik isə birbaşa Nuh tufanına bağlanır. Tufandan sonra cəmi səkkiz nəfər salamat qaldı ki – Nuh, arvadı, üç oğlu və üç gəlini, bunlara “Muğlar”, yəni “əcdad nəsil” dedilər. Bunların tarixi isə səkkiz və ya doqquz min ili əhatə edir. “Muğam” sözünün və ya adının kökündə məhz bunlar dayanır. Birinci lüğəti mənalara görə, atəşpərəst, zərdüştlər deməklə, yenə tarix həmin dövrləri əhatə edir. Fikrimizi təsdiq etmək üçün dünyanın ən qədim mənbələrindən olan Zənd-Əvəstaya (Avesta) bağlanaq. Aristotel və Evdoks elə hesab etmişlər ki, Zərdüşt Troya müharibəsindən 5000 il öncə, Əflatunun (Platonun) vəfatından 6000 il əvvəl yaşamışdır (3, səh. 12). Ümumilikdə götürdükdə, həmin dövrlə, yəni 8-9 minillikdə özünün tarixi kökünü tapır.

3) “Muğam” termini isə “Muğanə”dir. Muğanə – atəşpərəstcəsinə, atəşpərəst kimi, atəşpərəstlərin mərasim və ayini deməkdir (1, səh. 406).

4) “Muğam”ın digər bir mənası isə “Məqal”dır. Məqal – söyləmə, söz, atalar sözü, məsəl mənasındadır (1, səh. 335). İlk söyləmələri isə sufi dərvişlər avaz və xoş nəfəslə söyləmişlər. Muğam ilk dəfə məhz sufi dərvişlərin söyləmələri ilə məşhurluq qazanmışdır.

5) “Muğam”ın digər lüğəti mənası “Məqalidüssəmavat”dır ki, göylərin açarı deməkdir (1, səh. 335).

6) Digər bir məna isə “Məqam”dır ki, dayanılacaq yer, oturacaq məkan, mənsəb, rütbəyə mənsub deməkdir (1, səh. 336).

7) “Muyə” – səsləmə, ağlama, şivən qoparma mənasını əks etdirir. Yenə də sufi dərvişlərə bağlanır ki, onlar özlərini Allahın yolunda fəda edir, sonda xirqələrini yandırırdılar. Bu da əlbəttə ki, şikəstələr üzərində olmaqla, Atəşgaha və onun tarixinə bağlanır. Məhz bu baxımdan, müasirimiz Bilal Şirvani “Leyli və Məcnun” əsərində həmin məsələni diqqətəlayiq hallandırır.

Yığılıb cəm olun, siz o “Aləmə”,
Dərdimin öz dərdi, Muğamatı var.
Şikəstə mülkündən birtəhər çıxıb,
Söküyü, salxağı, salamatı var.

Dahi qibləsinin nurudu dəstgah,
Bil Muğam əhlinin öz camaatı var.
Üç rəngdə Muğamın şöləsi parlar,
Halın segahında fədakarı var.
Rəbbini tanımasa naqis bir bəndə,
Onun qarşısında çox günahı var (4, səh. 32-44).

Bilal Şirvani bu şah beytləri ilə muğamın kimə məxsusluğunu, nələrə, hara vurğulandığını və sonda onun yaranışının ana mahiyyətinin Allaha bağlılığını bizlərə çatdırır.

Dörd ünsür yaratmış məkanında can,
Cəm etmiş muğamda Çahargahı var.
Cümədir insanın müqəddəs günü,
Əhli müsəlmanın o "Pəncgahı" var.
İlkin yaranışda yaranmış Muğam,
Ta qədim binadan mövcudatı var.
Kür tək səbr edib, yoluna düşüb,
Nöqtədə birləşən Arazbarı var.

8) "Muğam"ın söz mənalarından digəri məhz "Mübərriğ"dir. Mübərriğ – təbliğ edən mənasında işlənir (1, səh. 396). Sual olunur, muğamda nəyin təbliğatı?

1. "Məqalidüssəmavatı", yəni göylərin açarı. Bunlar da yegah və dügahda öz əksini tapır. Yek Allah, dügah isə Allah tərəfindən göylə yerin yaradılmasıdır.

2. "Muğanə" – atəşpərəstcəsinə, atəşpərəst kimi, atəşpərəstlərin mərasim və ayini, zərdüşt dininə mənsub olan. "Muğanə"nin əsas mahiyyətini Bilal Şirvaninin beytlərindən aydın görmək olar.

Sonda isə "müğənni", söz mahiyyətində tamamlanır. "Müğənni" – xanəndə, muğam oxuyan deməkdir (1, səh. 396-405).

Muğamın söz mənalarından olan "Muyə"də maraqlı mənaları özünü əks etdirir ki, bu da sufi dərvişlərə məxsusdur. "Muyə" - səslənmə, ağlama, şivən qoparma mənalarını əks etdirir.

İlkin səsləmələr, ağılar heç də insanın ölümünə görə yox, Allah dərgahına alnı açıq getmək üçün səslənmişdir. Cəhənnəm xofu insanların ən dəhşətli qorxusu olmuş, ondan uzaq olmaq üçün Allaha yalvarış ağıları olmuşdur. Çünki ilk insan Adəm ata cənnətdə, Allah dərgahında gördüklərini övladlarına danışmış və gen yaddaşına bunları həkk etdirmişdir (5, səh. 22).

Klassik ənənələrə söykənərək, yüksək təfəkkürlü şair Bilal Şirvani muğamı pərdə-pərdə təhlil edərək, zər beytləri nəzmə çəkmişdir.

Sahibsiz olmasın, Ya Kəb, heç kimin
Yaxşı ki, muğamın etibarı var.

Bununla şair demək istəyir ki, muğam bəşər cəmiyyətinin qədim irsinin mənəvi silinməz ideologiyasıdır. Həm də bu ideologiyanın ali zirvəsidir (4, səh. 39).

Zərdüştün gününə düşüb aləmi
Qəm mülkündə ahın atəşbarı var.

Atəşbar – od yağdıran deməkdir. Yəni muğam dünyanın, muğamın yaradıcısı olan Zərdüştlərin mənəvi məhsuludur.

Bəşəri aləmin dünyası görür,
“Tək”in “cəm”lərində öz caharı var (4, səh. 41).

Yəni vahid Allah dördlüyü (Ma, Atəş, Xaki, Bad) su, od, torpaq və küləyi yaratmaqla, bəşəri insanın doğulmasına qapı açdı ki, bu da muğamda avazla öz əksini tapdı.

Muğam bir aləmdi, aləm də muğam
Kuzgara sirdaştı, dər kamalı var (4, səh. 44)

Şair zil pərdələrə söykənərək bildirir ki, muğam kamal dünyasının sönməz şöləsi, itməz parlaq zərlərindən biridir. Muğam sufilik aləminin mənəvi, pak yoludur ki, ilk dəfə məhz sufi dərvişlər tərəfindən oxunmuşdur.

Ömür bir zamandır, verilmiş sənə
Haqqın sənə bil ki, vaxtı, möhləti var.
Cənnətin məkanı behişdir o bil,
Cəhənnəmin odu, qiyaməti var (4, səh. 49-50).

Yazdıqlarımız bu beytlər muğamın əsas mənəvi şölələrindən olmuş, sufi dərvişlər qapı-qapı gəzib bunları xoş avazla, əlbəttə muğam dili ilə insanlara çatdırmışlar.

Muğam içrə bəhrin ruhi səbridir,
Aram ilə köçür öz siratı var.

Qasırğa qoparsa, nalə çəkər ah,
Çovğunlu tufanın qiyaməti var.

Yığılıb cəm olun siz o "Aləm"ə,
Dərdimin öz dərdi, muğamatı var (4, səh. 24).

Muğam sanki dörd fəslin buzlarını avazda insanlara çatdırmaqla bəşəri fəlsəfənin əcdadının Azərbaycanla bağlı olmasını bizlərə çatdırır.

Gələndə mülkündən kənara çıxmaz,
Yolun izini bilir, təyinatı var.

Muğam ölkəsinin o padşahı,
Çənlibeldən gəlir, bax "Heyrat"ı var.

Üç rəngdə muğamın şöləsi parlar,
Halın Segahında fədakarı var.

Bax, budur Allahın yaratdıqları,
Bütün bütün məxluqatın gör nə karı var (4, səh. 28).

Kar – qazanc, fayda, təsir deməkdir. Muğamın zirvə ulduzları bunlardır.

Musiqi dünyasının kökü Azərbaycana bağlıdır ki, tarixi qaynaqlar bunu təsdiqləyir. Qabıssan (Qobustan) qayaüstü rəsmləri (petroqliflər) və xalça işarələrinin naxışları bunu açıq göstərir.

Dəryada gəmim qaldı,
Biçilməmiş zəmim qaldı.

Təkcə bu mahnının beytləri Qabıssan (Qobustan) xalçaları və qayaüstü rəsmlərində öz vurğuları ilə Nuh tufanının məna və mahiyyətlərini bizlərə bir-bir çatdırır (7, səh. 198-224). Yaxud, dastanlardakı tarixi qaynaqlara nəzər yetirək.

"Aşıq Qərib və Şahsənəm" dastanındakı deyimlərə baxaq.

Dinləyin ustalar, xəbər soraydım,
Bu aşıqlıq kimdən icad olubdu?
Başınıza olmaz işlər açayım,
O kimdi ki, qəmdən azad olubdu?

Aldı Aşıq Qərib:

Ay ustalar, alın verin cavabı,
Aşıqlıq Adəmdən icad olubdu.
Dinləyin sözümü bir-bir həzərat,
O Adəmdi, qəmdən azad olubdu. (8, səh. 46-47)

Qabıssan (Qobustan) qayaüstü rəsmlərində Adəm və Həvvanın qoşa rəsmi yazdıqlarımızın təsdiqedici bariz nümunəsidir (9, səh. 37). Bundan arxaya tarix yox, söz və deyim yoxdur.

**Nəticə.** Muğamın tarixi qaynaqları lazımi şəkildə araşdırılmamışdır. Bu qaynaqlar bəşəriyyətin dünyanın yaranmasının avazda ifadəsini özündə əks etdirir. Muğam və onun şöbələrinin fəlsəfi, mifoloji tarixi xüsusiyyətləti dini mifologiyanın əsas qayəsi kimi təsdiqini tapır. Əsasən, bu dünya və axirətin qarşılıqlı vəhdətini tamlıqla özündə əks etdirir.

## Ədəbiyyat siyahısı

1. Ərəb və fars sözləri lüğəti. Az. SSR EA Nəşriyyatı. Bakı, 1966. Təkrar nəşri. Yazıçı, 1985.

2. Voroşil Qukasyan. Udincə-Azərbaycanca-Rusca lüğət. Bakı, “Elm” nəşriyyatı, 1974.

3. İsmayıl Şəmsi. Avesta. Bakı, Azərnəşr, 1995.

4. Bilal Şirvani. Leyli və Məcnun (poema). Bakı, Azərnəşr, 2003.

5. Şakir Qabıssanlı. Muğamın açılmamış sirləri. II hissə. Bakı, Təknur, 2011, 424 s.

6. İbni Qabus. Qabusnamə. Daneşe Hamidun. 2005.

7. Şakir Qabıssanlı (Həmzəyev). Bəşəri tarixə bağlı Azərbaycan toponimləri. Bakı, Gənclik, 2021.

8. Azərbaycan dastanları. III cild. Az. SSR EA Nəşriyyatı, Bakı, 1967.

9. Şakir Qabıssanlı (Həmzəyev). Azərbaycan xalçalarının açılmamış sirləri. Bakı, Təhsil, 2014.

**Zamiq Aliyev Balarza oghlu**

## Mugham and Its Historical Roots

**Summary:** In the article the author shares his conclusions on different music genres, their origin and the role in the enrichment of our spiritual life. Statements of thinkers about history and a deep meaning of Azerbaijani folklore and classical music, and examples from their works are noted in the article. The main idea of the article is that music dates back to the Azerbaijani music culture which is much more ancient than history of Ancient Egypt, Greece and Rome, and even dates back to the Adam`s period. Besides, the article analyzes all development stages of Azerbaijani music. Mugham and folk songs testify to the fact that one of component parts of the oral folklore – Azerbaijani folklore – is one of the most ancient pearls of the world culture. In the article 8 main sources were used and conclusions according modern demands were introduced.

**Key words:** mugham, song, epos, Gobustan, Adam, Noah, carpet, rock art

**Замиг Алиев Баларза оглы**

## Мугам и его исторические источники

**Резюме:** В статье автор делится своими умозаключениями, связанными с различными видами музыкальных жанров, историей их

зарождения, ролью в обогащении нашей духовной жизни. Приводятся высказывания многих мыслителей об истории и глубоком смысле азербайджанского фольклора и классической музыки, примеры из их трудов. В качестве основной мысли статьи выступает тезис о том, что истоки музыки уходят корнями в азербайджанскую музыкальную культуру, которая гораздо древнее истории Древнего Египта, Греции и Рима, восходит к временам Адама. Помимо этого, в статье прослеживаются все этапы развития жанров азербайджанской музыки. Мугам и народные песни наглядно свидетельствуют о том, что одна из составляющих устного народного творчества – азербайджанский фольклор – является одной из древнейших жемчужин всемирной культуры. В статье использовано 8 основных источников, представлены выводы в соответствии с современными требованиями.

**Ключевые слова:** Зардушт, мугам, «Кабусname», «Авеста», фольклор, народные песни, народные дастаны.

Məqalənin redaksiyaya daxilolma tarixi: 28.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 11.12.2025